*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 avqust 2017-ci il № 63 (2180) Qiyməti 25 qəpik


# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanış olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev avqustun 20-də Şəmkir rayonuna səfəri çərçivəsində Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanış olub.*

Bu gün artıq hamıya məlumdur ki, Azərbaycan ordusu nəinki regionun, eləcə də dünyanın ən peşəkar ordularından biridir. Şübhəsiz ki, peşəkar ordu xalqın müstəqilliyinin əbədi olmasını şərtləndirən mühüm amillərdəndir. Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Odur ki, 2003-cü ildən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar ordumuzun gücünü daha da artırır. Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının alınması da son illərdə ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərin tərkib hissəsidir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə 2013-cü ildə Türkiyə Respublikasının "Turmaks" firmasından ən müasir tibbi avadanlıqla təchiz edilmiş Mobil Səhra Cərrahiyyə Hospitalı alınaraq Silahlı Qüvvələrin istifadəsinə verilib. Əsas hissəsi 8 konteynerdən və 9 çadırdan ibarət olan mobil hospitalda gün ərzində 100 cərrahi əməliyyat aparmaq mümkündür.

**(Ardı 2-ci səhifədə)**

## Cocuq Mərcanlıda tikinti işlərinin növbəti mərhələsi sürətlə davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 15 iyun tarixli Sərəncamına əsasən, Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən aparılan tikinti-bərpa və abadlıq-quruculuq işlərinin növbəti mərhələsi uğurla davam etdirilir.

Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, inşaat işlərinə 30-a yaxın texnika, 350-dən çox işçi cəlb edilib. Bu mərhələdə 100 fərdi yaşayış evinin, 50 yerlik uşaq bağçasının, tibb məntəqəsi və klub-icma mərkəzi üçün binaların, poçt binasının və digər zəruri infrastruktur obyektlərinin tikintisi aparılır. 17 hektar ərazidə inşa ediləcək evlərin 14-ü birotaqlı, 38-i ikiotaqlı, 36-sı üçotaqlı, 12-si dördotaqlı olacaq. Hər bir ailə üçün 0,10 hektar torpaq sahəsi ayrılacaq. Qəsəbədə 1,75 hektarda yaşıllıq salınacaq, həmçinin yollar, səkilər və arxlar çəkiləcək. Yaşayış qəsəbəsi elektrik enerjisi, su və qazla tam təchiz ediləcək. Hazırda qəsəbədə 25 evin dam örtüyü vurulub, digər evlər və ictimai binaların isə hörgü işləri başa çatıb. Aparılan tikinti işlərinin 1 ay ərzində başa çatdırılması nəzərdə tutulur.

Qəsəbədəki evlərə Cocuq Mərcanlı kəndindən olan məcburi köçkünlər köçürüləcək. Bu gün bütün ölkə ictimaiyyəti, qaçqın və məcburi köçkün soydaşlarımız hesab edirlər ki, dövlətimizin başçısı tərəfindən atılan bu qətiyyətli addımlar növbəti uğurlarımızın, doğma ellərə "Böyük qayıdış"ın başlanğıcıdır.

Qeyd edək ki, qaçqın və məcburi köçkünlər üçün ümumilikdə indiyədək 3,2 milyon kvadratmetr yaşayış sahəsi olan 96 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. Görülən işlər nəticəsində 50 min ailənin və ya 250 min nəfər qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb.

# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanış olub



(Əvvəli 1-ci səhifədə)

Müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına səyyar hospital barədə məlumat verildi. 2013-cü ilin iyun ayının 24-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında açılaraq dövlətimizin başçısına təqdim edilən bu Mobil Səhra Cərrahiyyə Hospitalı Silahlı Qüvvələrə təhvil verildiyi gündən indiyədək döyüş bölgələrində təyinatı üzrə fəaliyyət göstərib, 2016-cı ilin aprel döyüşlərində yaralı və xəstələrə tibbi yardım göstərilməsi zamanı praktiki olaraq sınaqdan keçirilib. Hospital 2,5 min kvadratmetr sahədə açılır. Açıldıqdan bir saat sonra xəstələri qəbul edə, 4-6 saatdan sonra isə öz funksiyasını tam yerinə yetirə bilir. Burada gündə 150-dək xəstəyə tibbi xidmət göstərmək mümkündür. Hospital yaralıların və xəstələrin qəbulu, qeydiyyatı və diaqnozun qoyulması üçün nəzərdə tutulan çeşidləmə, idarəetmə və reabitə, həmçinin diaqnostika çadırlarından ibarətdir. Diaqnostika çadırında müayinələr aparmaq üçün rəqəmsal rentgen, USM, 12 kanallı elektrokardioqraf aparatları və 24 göstəricini eyni zamanda verən qan analizatoru mövcuddur. Həmçinin hospitalın 2 əməliyyat, 2 intensiv terapiya bloku və hər birində 8 çarpayı olan 6 müalicə çadırı var. Hospitalın özəlliyi onun konteyner və çadırlarının qısa müddətə hazır vəziyyətə gətirilməsindədir. Konteynerləri 5-7, çadırları isə 7-9 dəqiqəyə hazırlamaq mümkündür. Bu isə hospitalın daşınma prosesini asanlaşdırır. Səyyar hospital şəxsi heyətin yataqxanası, aptek, mətbəx, hamam və sanitar qovşaqla təchiz olunub. Bütün konteynerlərdə və çadırlarda işıq, mərkəzləşdirilmiş havalandırma və yanğın əleyhinə xüsusi sistemlər quraşdırılıb. Mobil Səhra Cərrahiyyə Hospitalının tam həcmdə fəaliyyəti üçün 25 nəfər həkim və digər hərbi qulluqçular, ümumilikdə 88 nəfər nəzərdə tutulub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**





*Ordu həyat məktəbidir*

# Həm döyüşçü, həm də layiqli vətəndaş...

*Əsgəri xidmət gənclərə hansı üstün keyfiyyətləri qazandırır? Hansı mənəvi dəyərləri aşılayır? Müstəqil həyata təzəcə qədəm qoyan gənc əsgər xidmətdə necə formalaşır, hansı vərdişlərə yiyələnir?*

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində ezamiyyətim zamanı bəzi suallara tərxis olunmağa hazırlaşan əsgərlərdən cavab almaq istədim. Bir neçə əsgərin düşüncəsini eşitdim.

Əsgər Namiq Babayev hərbi xidmətə Biləsuvar rayonundan çağrılıb, manqa komandiridir. Əvvəlcə kiçik komandir olaraq hansı işlər gördüyündən danışır. Manqanın hər an döyüş hazırlığına cavabdeh olduğunu bildirərək deyir ki, yeni əsgəri postun ərazisi ilə tanış edir, səngəri gəzdirir, düşmən mövqelərindən danışır, təhlükəli istiqamətləri, minalanmış əraziləri göstərir.

- Xidmətimi bitirib döyüş postundan ayrılacağım üçün duyğulanıram, - deyir. - Əsgər yoldaşlarım üçün darıxacam. Gəlib onlara baş çəkəcəm. Hərbi xidmət həyat məktəbidir. Təhsil aldığın orta məktəbdə biliklərə yiyələnirsən. Bu məktəb isə sənə həyat dərsi keçir. Mərdlik, qorxmazlıq formalaşdırır. Cəsur olmağı, dostluğa sadiq qalmağı, ən çətin anda belə dostunu tərk etməməyi aşılayır. Çətinliyə dözməyi, müxtəlif şəraitlərə uyğunlaşmağı bacarırsan. Düşmənini daha yaxından tanıyırsan. Vətənpərvərliyi, Vətən sevgisini səngərdə, əlin silahda, gözün düşməndə olanda öyrənirsən. Hərbi xidməti başa vurub bir arzu ilə evə qayıdırsan: döyüş əmri olan kimi geri qayıtmaq, yoldaşlarınla çiyin-çiyinə savaşa atılmaq.

Torpaqlarımızın bir qisminin işğal altında olduğu bir şəraitdə hərbi xidmət keçməyin vacibliyini yaxşı dərk edən igid əsgərlərdən Mirəşrəf Nəzərov və Elçin Babaşovla istirahət guşəsində görüşürəm. Onlar "Azərbaycan Ordusu" qəzetini oxuyurlar. Salamlaşdıqdan sonra əsgəri xidmətdən hansı təəssüratlarla ayrılacaqlarını soruşuram. Hərbi xidmətə Cəlilabad rayonundan çağrılan əsgər Mirəşrəf Nəzərov sözə başlayır:

- Əsgəri xidmətdən qələbə təəssüratları ilə, düşməndən qat-qat güclü olduğumuza əminliklə ayrılıram. Tez zamanda torpaqlarımızı işğaldan azad etmək üçün hərbi hissəyə qayıdaraq, xalqımıza böyük qələbə sevincini yaşadanların sırasında olmaq arzusu ilə xidmətimi başa vururam. Hərbi xidmətin mənə öyrətdiyi üstün keyfiyyətlərdən hər bir gəncə danışacağam. Vətənpərvərlikdən, Vətən sevgisindən, Vətənə sədaqətli olmaqdan, düşmənə nifrət hissindən söz açacağam. Və bütün yoldaşlarıma deyəcəyəm ki, bizim ən birinci və ən vacib borcumuz hərbi xidmət keçmək, bacarıqlı və cəsur əsgər olmaq, torpaqlarımızı düşmən işğalından azad etməyə hər an hazır olan döyüşçülər kimi yetişməkdir. Məni vətənpərvər döyüşçü kimi yetişdirən, silahlardan istifadə etməyi, nizam-intizamlı olmağı öyrədən komandirlərimə hər zaman minnətdar olacağam.

Qobustan rayonundan olan əsgər Elçin Babaşov isə əsgəri xidmətin möhkəm dostluğa zəmin yaratdığını deyir:

- Mirəşrəf və digər əsgər yoldaşlarım möhkəm dostluğumuz var. Bu dostluq, müqəddəs sıradan, barıt qoxulu səngərdən, bir süfrədə yediyimiz yeməkdən, bir yerdə yatdığımız əsgər yataqxanasından başlayır. İstənilən şəraitlərdə Vətənimizin keşiyində birlikdə dayanmaqdan, düşmən həmlə etdikdə çiyin-çiyinə vuruşmaqdan başlayır bu dostluq və bir ömür davam edir. Əsgəri xidmətim digər yoldaşlarım kimi məndə də mətinlik, dözümlülük, qorxmazlıq formalaşdırdı. Bizi silah və texnikadan istifadə etməyi bacaran əsgər kimi yetişdirən bu məktəb əsil kişilik məktəbidir. Mən idmanla gündəlik məşğul olan, nizam-itizamlı və vətənpərvər gənc kimi xidmətimi başa vururam. Azərbaycan bayrağını Qarabağda dalğalandırmaq üçün yenidən əsgəri xidmətə qayıtmaq arzusu ilə evə gedirəm.



Müxtəlif hərbi hissələrdə tərxis olunmağa hazırlaşan əsgərlərlə söhbətləşdikdə, ordu həyatının gənclərə aşıladığı üstün keyfiyyətləri onların da öz dilindən eşidirəm. Bir daha əmin oluram ki, Azərbaycan Ordusunda xidmət edən gənclər, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda formalaşır və yüksək mənəvi keyfiyyətlərə yiyələnərək cəmiyyətə qovuşurlar.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
foto
Coşqun CƏFƏROVUNDUR**

# Ermənistan silahlı qüvvələrində növbəti biabırçılıq

Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdə yerləşən bölmələrində növbəti cinayət hadisəsi qeydə alınıb.

AZƏRTAC xəbər verir ki, Madagiz hərbi bazasında şəxsi heyət arasında nizamnamədən kənar qarşılıqlı münasibətlərin pozulması nəticəsində əsgərlər Asatryan və Arsen Markaryan ciddi bədən xəsarətləri alıblar. Xidməti vəzifələrini yerinə yetirən alayın 4-cü taborunun hər iki əsgəri yuyunma yerinin təmizlənməsindən imtina etdikləri üçün taqım komandiri Aşot Gevorkyan tərəfindən vəhşicəsinə döyülərək hospitala yerləşdiriliblər. Bundan əlavə, məlum olub ki, elə həmin gün bu alayın 2-ci taborunun əsgəri Qaqik Martirosyanın da hələlik naməlum şəraitdə barmağı sındığı üçün hospitala aparılıb.

Ağdərə ətrafında yerləşən digər bölmədə odlu silahdan istifadə qaydalarının pozulması səbəbindən Hraç adlı əsgər barəsində açılan cinayət işi ilə əlaqədar hərbi qulluqçular Aram Mardinyan, Alyoşa Barseğyan, Apres Qriqoryan və Harutyun Hakopyan istintaqa cəlb olunublar.

Yenə də Ağdərədə yerləşən işğalçı ordunun hərbi hissədə müqavilə əsasında xidmət edən hərbi qulluqçusu Armen Yeğazaryan tərəfindən kiçik rütbəli zabitin döyülməsi, o cümlədən fərarilik və mobil telefondan istifadə etmə faktları üzrə cinayət işləri açılıb.

Reportaj

# Ön xətdə xidmət qürurvericidir

*Qızmar avqust günlərində Vətənimizin dilbər guşələrindən birindəyəm. Günəş şüaları ətrafa hakim olsa da qəlbimdəki hərarətin qarşısında acizdi. Bu enerjini torpaqdan və görüşünə can atdığım, Vətənin mərdlik, fədakarlıq, qəhramanlıq simvolu olan Azərbaycan ordusunun şəxsi heyətindən - əsgərlərdən alıram. İstidən cadar-cadar olan torpaq, saralmış otlar gözümdə yaşıllıq mücəssəməsi kimi canlanır.*



Atılan ilk addım çətin və sevincli olur. Yaşadığım sevinci qələmə almaq, sözlə ifadə etmək mümkün deyil. Bir onu bilirəm ki, torpaqlarımızı sevincli düşüncələrlə yüksəkliklərdən seyr edirəm.

Birinci ezamiyyətimdir, ilk dəfə ön xəttə əsgərlərimizə baş çəkməyə gedirəm. Sürücü çavuş Natiq Tanrıverdiyevin idarə etdiyi avtomobillə irəlilədikcə yolboyu əkin sahələrini, insanları görürəm. Onların inamlı baxışlarından "Biz Azərbaycan əsgərinə güvənirik" fikirini hiss edirəm.

Üfüqdə gözəlliyi ilə insanı heyran edən, Qarabağın incisi sayılan Kiçik Qafqaz sıra dağları görünür. "Uşaqlığım həmin dağın ətəklərində keçib", - deyə çavuş N.Tanrıverdiyev sükutu pozur.

Yenə də sükut...

Məchul sükuta daha çox ehtiyacım var. Çünki təbiətin bütün gözəlliklərini gözlərimin yaddaşına köçürmək istəyirəm.

Yaşayış məntəqələri arxada qalır. Dağın zirvəsində yerləşən postumuz görünür. Uzaqdan düşmənin bütün hərəkətlərini nəzarətdə saxlayan Azərbaycan əsgərinin görüşünə tələsirəm.

Baş leytenant Samir Mehdiyevlə birlikdə postda şəxsi heyət üçün yaradılan şəraitlə tanış oluruq. Ərazi bütövlüyümüzün və suverenliyimizin dayağı olan ordumuza xüsusi diqqət və qayğının olduğunu deyən zabit aprel döyüşlərini məhz belə diqqətin təzahürü kimi dəyərləndirir.

Bölük komandiri daha sonra postun döyüş növbətçiliyi barədə məlumat verir: "Döyüş növbətçiliyi əsasən iki hissədən ibarətdir: ayıq növbə və istirahət edən növbə. Ayıq növbə silahlanmaq, döyüş tapşırığına əsasən manqanın mövqeyində cəld atəş mövqeyini tutmaq, silahı doldurmaq, atəş sektoruna uyğun olaraq silahın həqiqi məsafəsinə yaxınlaşan düşməni komanda ilə və yaxud sərbəst məhv etmək, manqanın mövqeyini nəyin bahasına olursa-olsun əldə saxlamaq funksiyasını yerinə yetirir. İstirahət edən növbə isə döyüş tapşırığına əsasən cəld atəş mövqeyi tutmaq, atəş sektoruna uyğun silahın həqiqi atəş məsafəsinə yaxınlaşmış düşməni komanda ilə və yaxud sərbəst məhv etmək, manqanın mövqeyini nəyin bahasına olursa-olsun əldə saxlamaq tapşırığına cavabdehdir".



Vətənin keşiyində əminliklə dayanan əsgərlərlə tanış oluram. Ordu sıralarına Şəmkir rayonundan çağrılmış əsgər Ələsgər Əliyev 16 aydır hərbi xidmətdədir. Onunla söhbətimdə bir daha əmin oluram ki, ordumuz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı düşməndən azad etməyə qadirdir: "Vətən yolunda canımızdan keçmək, şəhid olmaq şərəfdir. Ön cəbhədə xidmət keçmək, düşməni daim qorxu altında saxlamaq mənim üçün də qürurvericidir. Fəxr edirəm ki, Azərbaycan əsgəriyəm".

Əsgər Hacıəli Hacıyev hərbi xidmətə Abşeron rayonundan gəlib. 13 aydır Vətənin keşiyində dayanan əsgər son damla qanına qədər dövlətimizə, bayrağımıza, tariximizə bağlı olduğunu deyir: "Bu gün Azərbaycan və onun ordusu çox güclüdür. Artıq bunu düşmən də dərk edir. Xalqımız ordumuza güvənir və bu, bizə inam, fəxarət hissi verir".

Ağstafadan olan Əli Əsgərov söhbətə "Torpaq - uğrunda ölən varsa, Vətəndir!" sözləri ilə başlayır. Əsgər xidmət etdiyi postun, zabitlərin və əsgər yoldaşlarının onun üçün doğmalaşdığını bildirir: "Burada özümü doğma hiss edirəm. Valideynlərim, dostlarım ön xətdə xidmət etməyimdən fəxarətlə danışırlar. Bu isə mənə daha da ayıq-sayıq olmaq, düşməni daim müşahidə etmək üçün güc verir".

Başqa mövqedə müşahidə aparan əsgər Özəl Dünyamalıyev hərbi xidmətə Sumqayıt rayonundan çağırılıb. 13 aydır Vətənin keşiyində dayanır. - "Vətən sevgisi ən uca sevgidir - deyir. - Düşmənə nifrətimiz sonsuzdur. Biz torpaqlarımızı Ali Baş Komandanın əmri ilə istənilən an işğaldan azad etməyə hazırıq. Mənim və əsgər yoldaşlarımın yüksək döyüş qabiliyyəti və əhval-ruhiyyəsi var. Burada bizim üçün hər bir şərait yaradılıb. Dünyanın güclü ordularından birinin əsgəri olmağımla fəxr edirəm".

Fəxr hissi məni də bürüyür...

Söhbət etdiyim digər əsgərlərdə də özünəinam qabarıq şəkildə özünü göstərir. Bu inam güclü dövlətin, güclü ordusu olan ölkənin vətəndaşı olmaqdan, milli birliyimizdən qaynaqlanır.

Üfüqdə canımızın parçası doğma torpaqlarımız görünür. Azərbaycan əsgərinin ayaq səslərini eşidirəm...

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# Mən əsgər anasıyam!

*Həyatımda əlamətdar, yaddaqalan günlər çox olub. Hər birini sevinclə, fərəhlə yaşamışam. Sonralar həmin günləri xatırladıqca kövrəlmişəm də. Bu kövrəklik gözəl kövrəklikdi. Oğlum Sərvan hərbi xidmətə çağırıldı. Gözlədiyimiz günün sevinci həyəcan yaratsa da qürurlandıq. Atası Mahir də, mən də. Qürurlandıq ki, oğlumuz Vətən borcunu yerinə yetirməyə çağırılır. Sevindik ki, Vətən üçün əsgər böyütmüşük. Qonum-qonşu bizə gözaydınlığı verdi. Oğlum əsgər gedirdi. Deməli, oğlum sağlamdır. Deməli, oğlum Vətənə lazımdır. Bax, bunlar mənim ana qəlbimi dağa döndərdi...*

Oğlum Sərvan Əmirbəyovun andiçmə mərasimində keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyil. Eyni yaşda əsgərlərin sırasında oğlumun hansı olduğunu müəyyənləşdirməyən, onu tanımağın çətinliyi incə bir narahatlıq yaradırdı. Nə gizlədim, tədbirin tez başa çatmasını arzulayırdım. Ancaq deyilənləri də diqqətlə dinlədim. Deyilənlər gənc əsgərlərə necə xidmət etmə tövsiyyələri idi. Komandir də, valideynlər də onlara hərbi nizamnamələrin tələblərinə ciddi əməl etməyi, verilən əmirləri, göstərişləri vaxtında, dəqiq yerinə yetirməyi və s. tapşırırdı. Bunları oğullarımıza hərbi xidmətə yola düşəndə biz də demişdik. Gənc əsgərlər bir də əmin oldular ki, valideynlər də, hərbi hissənin zabitləri də onlardan eyni xidməti gözləyir...

Əsgər analarının həyəcanını hiss edirdim. Mənim kimi onlar da oğullarını görəcəyi anın intizarındadılar...



Oğlumu gördüm!

Hərbi mundir oğluma elə gözəl yaraşırdı ki!..

Çox sevinirdim. Əsgərlər üçün yaradılmış şəraitlə tanış olandan sonra bir daha əmin oldum ki, dövlətimiz öz əsgərinə böyük diqqət və qayğı göstərir, Bu diqqət və qayğıya görə Ali Baş Komandana, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Hər bir əsgər Vətənin oğludur. Fəxr edirəm ki, mənim də oğlum onların sırasındadır! Fəxr edirəm ki, mən əsgər anasıyam!..

**Nuridə ƏMİRBƏYOVA**
**əsgər anası**

# Hərbi qulluqçularla maraqlı görüşlər keçirilib

*Gəncə Qarnizonu Zabitlər Evinin Səyyar Təbliğat dəstəsi cəbhə bölgəsində yerləşən hərbi hissələrdə, o cümlədən ön xətdə döyüş növbətçiliyi çəkən bölmələrdə şəxsi heyəti ziyarət edib.*



Görüşlər zamanı Səyyar Təbliğat dəstəsinin üzvləri əsgərlərlə müxtəlif mövzularda söhbətlər aparıb, hərbi qulluqçuların döyüşə hazırolma vəziyyəti, əsgər və zabitlərin mənəvi-psixoloji durumu, sosial-məişət şəraiti, tibbi xidmət, qidalanma və digər məsələlərlə tanış olublar.

Ziyarətin başlıca məqsədi hərbi qulluqçuların mənəvi-psixoloji ruhunu yüksəltmək üçün mədəni-kütləvi tədbirlərin keçirilməsi, hərb tariximizin öyrənilməsi, hərbi ənənələrin təbliği, müharibə veteranlarını gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinə daha fəal cəlb etmək və vətəndaşlıq borcunu yerinə yetirən şəxsi heyətə mənəvi dəstək olmaqdır.

Hərbi qulluqçularla keçirilən görüşlərdə döyüş hazırlığında nizam-intizamın, hərbi biliklərin, peşəkarlığın vacibliyi və mənəvi-psixoloji hazırlıq mövzularında söhbətlər aparılıb, "Vətən Uğrunda" Səyyar Təbliğat dəstəsinin avtoklub maşını vasitəsilə hərbi-vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib.

Tədbirlərdə Qarabağ müharibəsi veteranları Dilqəm Əliyev, İlham Əliyev, Valeri



Behmetov, Əlyar Novruzov, Ülvi Xəlilov, Veysəl Əliyev, Fəxrəddin Məmmədov və Əli Ziyadov ön xətdə düşmənlə üz-üzə dayanmış şəxsi heyətlə mütəmadi görüşlərə böyük məmnuniyyətlə gəldiklərini bildirərək, əsgərlərə müharibə dövrü ilə bağlı xatirələrini danışıb, bilik və təcrübələrini bölüşüblər. Birgə həyata keçirilən belə tədbirlərin mənəvi-psixoloji təsiri və əhəmiyyəti nəzərə alınaraq bu xarakterli görüşlərin davamlı olmasının vacibliyi qeyd edilib.

Daha sonra əsgərlərlə hərb tarixi mövzusunda viktorina keçirilib. Musiqi dəqiqələri ilə davam edən görüşlər, idman yarışları ilə yekunlaşıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Gənc zabitlərimiz*

# Xalqımızın Qələbə müjdəçisi olmaq arzusundayıq

*Hərbi fəaliyyətin təşkili və inkişafı tarixi ənənə və təcrübədən təcrid edilə bilməz. Bu məsələ o vaxt daha əhatəli həll edilə bilər ki, xalqın hərb tarixinin dəyərlərinə əsaslansın. Hərb işinin düzgün təşkili xalqın hərb tarixi təcrübəsi ilə hərb elminin bugünkü inkişaf səviyyəsinin qarşılıqlı vəhdəti ilə bağlıdır. Ümumiyyətlə, hərb işi də keçmiş təcrübəni öyrənmədən, onun metodiki baxımdan müsbət cəhətlərinə köklənmədən irəliyə gedə bilməz.*

Azərbaycan hərbçisi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin istənilən məqamında öz sözünü layiqincə deyir. Məhz bu baxımdan, qəhrəman oğullarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi hərbi-vətənpərvərlik tərbiyəsi işində ön plana keçir.

Bu yaxınlarda hərbi hissələrimizdən birində "Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu" adı uğrunda keçirilən yarışda iştirak edəndə kapitan Pərvin Baxışovla tanışlığımız yuxarıda söylədikərimizin bariz sübutu oldu. Onunla tanışlıq-




dan əmin oldum ki, tarixi ənənələrimiz davam edir və ordumuzun sıralarında kifayət qədər savadlı, bacarıqlı artilleriyaçılarımız var.

- Ermənilərin torpaqlarımıza qarşı ərazi iddiaları nəticəsində çox böyük itkilərimiz olub, - deyə kapitan söhbətə başladı. - Tariximizdə böyük faciələr olub. Ermənilər öz havadarlarının köməyi ilə torpaqlarımızı işğal ediblər. Düşmənin vəhşilikləri, Silahlı Qüvvələrimizin şəxsi heyətində də intiqam hissini gücləndirir .

Zabit bildirdi ki, keçirilən təlimlər əməli vərdişlərin artmasına və nəticədə torpaqlarımızı işğaldan azad etməyə xidmət edir. "Şəxsi heyət qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir. Bu gün təlimdə tər tökürük ki, döyüşdə zəfər qazanaq. Aprel döyüşləri yaxın tariximizin zəfərləridir. Bu zəfər bizləri böyük qələbəyə ruhlandırır".

Kapitan söhbətə iştirakçısı olduğu aprel döyüşləri ilə davam edir: "Uğurlu döyüş əməliyyatları bir daha sübut etdi ki, Azərbaycan Ordusu hər şeyə qadirdir. Ordumuzun qüdrəti, silah-sursat arsenalımızın gücü sayəsində düşmənə ağır və sarsıdıcı zərbələr vuruldu və qəhrəmanlıq tariximizin yeni səhifəsi yazıldı. Ümumiyyətlə, bütünlüklə döyüş üstünlüyü bizim əsgərlərdə idi və hər bir əsgərin döyüş əzmi çox yüksək idi. Qəti əminəm ki, Ali Baş Komandanımız İlham Əliyevin əmri ilə biz öz torpaqlarımızı işğaldan azad edəcəyik. Buna varlığımla inanıram. Həmin an Vətəndən başqa heç nəyi düşünmürdük. Tək düşündüyümüz məsələ işğal altında olan dədə-baba torpaqlarımızın ermənilərdən azad olunması idi. Bu, belə də olmalıdır. Çünki əsgər daim Vətənini, millətini, ölkəsini düşünür. Onu da qeyd edim ki, Vətən uğrunda döyüşən, canından, qanından keçməyə hazır olan hər bir şəxs dövlətimizin, cəmiyyətimizin diqqət və qayğısı ilə əhatələnib. Xalqımızın Qələbə müjdəçisi olmağa hazırlaşırıq!"

**Kapitan Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu"**

*Ovqat*

# Hərbi xidmət insanları doğmalaşdırır

Andiçmə mərasimi başa çatıb. Heç kim yayın bürküsünü hiss etmir; bu günün ovqatı bənzərsiz könül xoşluğudu. Ürəkləri coşduran, daşdıran sevinc, fərəh, qürur hərdən gözlərdən damla-damla yaş da üzür. Hansı duyumun təsiriylə göy üzünə baxıram: qanadları gərilmiş bir qartal süzür. "Hərbi and içən gənc əsgərlərə uçuş biçimli xeyir-duadı..." - düşünürəm. Ürəyim tellənir. Sıra meydanı baxış-baxış güllənir. Yadıma xalq şairi Zəlimxan Yaqubun misraları düşür: "...eldən-obadan belə güc alasan güc alanda da...".

Bu güc ordumuza ad olan gücdü. Bu güc ordumuzun gücüdü. Yüzlərin baxışı təntənəli marşla keçən əsgərlərdən üzülmür...

Bir ananın dedikləri düşüncələrimin nizamını-sığalını pozur: "Oğlumun dostu da oğlumdu...". İki əsgərdi, bir anadı. Ananın bir əli bir əsgərin, o biri əli digərinin çiynindədi. Biri oğludu, biri oğlunun dostu. Oğlu hansıdı, oğlunun dostu hansı - ayırd etmək çətindi: Ana gah İlkinə - oğluna baxır, gah Samirə - oğlunun dostuna. Gah İlkini bağrına basır, gah Samiri...

"Hərbi xidmət həm də insanları doğmalaşdırır", - düşünürəm. Belə gözlənilməz doğmalaşma məni özünə çəkir; söhbətləşməyi qərara alıram...

Səkinə Abasova oğlu İlkinin andiçmə mərasiminə Qazaxdan gəlib. İlkini hərbi mundirdə görən ananın qüruru, sevinci seziləndi, duyulandı - bu qürur, bu sevinc yerə-göyə sığışmır. Oğluna baxır, oğlunun dostuna baxır...

Samirin valideynləri Moskvada yaşayır. Orda ali təhsil alıb. Çağırış vaxtı çatanda Bakıya qayıdıb. Ata-anasının xeyir-duasıyla hərbi xidmətə gedib. Atası əməliyyat olunduğuna görə Samirin andiçmə mərasiminə gələ bilməyib. Bunu hərbi hissədə təkcə İlkinə deyib. Könüldiyini dostundan gizlətməyə çalışsa da bacarmayıb.

İlkin Samiri köksünə sıxıb: - Mənim anam sənin də anandı, qardaş...

Səkinə xanım Samiri oğlundan ayırmayıb. Bir azdan ikisini də Hacıkəndə aparacaqdı. Tanışlarına belə deyəcəkdi: "Oğullarımdı, əsgərdirlər. Bu gün ikisi də hərbi and içib..."...

...Samirin atası sağalacaq. Oğlunun yanına gələcəklər. Oğlunu da, İlkini də bağrına basacaq. Ikisinin də saclarını oxşayacaq, ikisini də gözdolusu süzəcək, ikisinə də ata xeyir-duası verəcək. Şəkil də çəkdirəcəklər. İlkin şəkili anasına göndərəcək. Ana bir az kövrələcək. "Kaş orda olaydım. Samirin anası ilə tanış olaydım. Belə oğul böyüdən ananı köksümə sıxardım..." - deyəcək...

Hərbi xidmət həm də insanları doğmalaşdırır. Bu doğmalaşma ordumuzun gücünə güc deməkdi...

İlkinlərlə Samirlərin dostluğuna necə həsəd aparmayasan?!...

Azərbaycan Ordusunun İlkinlər, Samirlər kimi neçə əsgəri var...

Səkinə Abasova, Zeynəb Əmirova kimi əsgər anaları var.

**Rəşid HÜSEYNOV, "Azərbaycan Ordusu"**

Məişət şəraiti

# "Yüksək qayğı ilə əhatə olunmuşuq"

*Şəxsi heyətin sağlam mənəvi-psixoloji durumu və döyüş ruhu qələbəni təmin edən ən başlıca amillərdəndir. Müasir dövrdə Azərbaycan əsgərinə göstərilən diqqət və qayğı, yüksək sosial şərait, onların əsgəri xidmətlərini uğurla keçməsi üçün zəmin yaradır. Bu yaxınlarda cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində olarkən əsgərlər üçün yaradılmış məişət şəraitinin və sosial təminatın şahidi oldum.*



Döyüş postundan hərbi hissəyə qayıdanda günəş qüruba meyillənirdi. Zabit Müseyib Zeynalov şəxsi heyətin axşam yeməyinin vaxtı çatdığını deyərək məni əsgər yeməkxanasına dəvət edir. Əsgərlərin yeməkxana şəraiti ilə tanış olmaq və onlarla bir süfrədə əyləşmək istəyi ilə yeməkxana növbətçisi ilə görüşürəm. Baş gizir Rəşad Məmmədzadə növbətçiliyin normal keçdiyini, ərzaq normalarına uyğun yeməklərin hazırlandığını deyir. "İstifadəmizə müasir standartlara cavab verən yeməkxana verilib. Burada əlyuma yeri, səliqəli masa-stulları olan geniş zal, yeni mətbəx avadanlıqları və s. əsgərlərə keyfiyyətli yeməklər hazırlanmasına şərait yaradır. Yeməklərin keyfiyyətinə və vaxtında hazırlanmasına ciddi nəzarət edilir. Vətən torpaqlarına keşik çəkən əsgərlərə fəsilə uyğun olaraq alma, armud, üzüm, heyva, qarpız və s. meyvələr də verilir. Bunların hamısı əsgərləri öz övladlarından ayırmayan ana əlləriylə hazırlanır" - deyir Rəşad.

Rəşadla söhbətimi yekunlaşdırıb əsgərlərlə masa arxasında əyləşirəm. Əsgərlər Fəhmin Hüseynli, Sevindik Abıyev, Səbuhi Quliyev, Natiq Museyibov və İsa Məmmədovla maraqlı söhbətimiz olur. Onların hər biri deyir ki, burada yaradılan yüksək məişət şəraiti bizdə ruh yüksəkliyi yaradır. "İsti yataq yerimizdən tutmuş qida, geyim və məişət ləvazimatlarına kimi hər şeylə təmin olunmuşuq. Ata-analrımızın ürəyi rahat olsun, biz burada yüksək qayğı ilə əhatə olunmuşuq, ana əllərindən qidalanırıq".

Səliqəli formaları ilə yeməkxananı daha da gözəlləşdirən qadın aşpazlara yaxınlaşıram. Əsgərlərə öz övladları kimi xidmət edən bu zəhmətkeş insanlardan biri - aşbaz Sevda Səfərova bildirir: "Mən uzun müddətdir ki, bu hərbi hissədə işləyirəm. Burada əsgərlər üçün hər cür şərait yaradılıb. Bizi, bütün Azərbaycan xalqını düşməndən qoruyan əsgərlərə xidmət etməkdən qürur duyuruq. Onlar bizim güvənc yerimizdir", - deyir Sevda xanım.

Yeməkxanada ürəkaçan şəraitlə tanış olduqdan sonra əsgər yataqxanasına yollanıram. Əsgərlərin asudə vaxtıdır. Kimi sinif otağında qəzet və jurnal oxuyur, kimi məişət otağında sabahkı günə hazırlaşır. Yataq otağındakı səliqə-sahman, təmizlik göz oxşayır. Bir mərtəbəli çarpayılar, pambıq yataq dəstləri, yaylı döşək, tərtəmiz dəsmallar və s. əsgərlərin sosial-məişət şəraitinin yüksək olduğunu sübut edir. Əslində düşmənlə təmas xəttində yerləşən hərbi hissədə gördüklərim ordu quruculuğunda aparılan islahatların, şəxsi heyətin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin nəticəsidir.



Əsgərlər Sərxan İmamverdiyev və Gündüz Əliyev "Belə yüksək şəraitdə xidmət etmək, göstərilən diqqət və qayğı döyüş qabiliyyətimizə müsbət təsir edir, bizə xoş ovqat, vətənpərvərlik aşılayır. Vətənimizə layiqli xidmət etmək üçün əlimizdən gələni edirik", - deyirlər.

Hərbi xidmətə Şirvan şəhərindən çağırılan əsgər İsa Mustafayev söhbətə qoşularaq deyir ki, 11 aydır xidmət edirəm, təminatımız yüksəkdir. "Üzərimizə təkcə bir vəzifə düşür - uğurlu xidmət etmək, komandirlərimizin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirmək, Azərbaycan Ordusuna layiqli əsgər olmaq".

Hərbi hissədə şahidi olduğum şərait, əsgərlərdən eşitdiyim xoş sözlər Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordu quruculuğuna diqqət və qayğısının bariz nümunəsidir. Bu qayğının nəticəsidir ki, düşmənlə təmas xəttində yerləşən bütün hərbi hissələrdə əsgərlər yüksək təminatlı şəraitdə xidmət edirlər.



**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Ermənistan hakimiyyəti zabitləri orduda zorla saxlamaq arzusundadır

*Ermənistan hakimiyyəti zabitləri orduda zorla saxlamaq arzusundadır. Müdafiə nazirinin yeni qərarının əks təsiri olacaq.*

AZƏRTAC Ermənistan mətbuatına istinadən xəbər verir ki, bunu Ermənistan Müdafiə nazirinin 2017-ci il 20 iyun tarixdə verdiyi yeni əmrə münasibət bildirən vəkil Norayr Norikyan deyib.

Vəkil Norayr Norikyan bildirib ki, bu əmrdən sonra 17 zabit məhkəmələrə hüquqlarının bərpa edilməsi tələbi ilə müraciət edib. Yeni əmrə əsasən zabitlərlə bağlanmış müqavilənin yeni dəyişdirilmiş varianti təklif edilib. Əmrə əsasən hərbi təhsil müəssisəsini bitirmiş zabit 10 il başa çatmamış xidmətdən imtina edərsə, hər il üçün hazırda mövcud 250 min dram (880 AZN) əvəzinə dövlətə 1 milyon dram (3525 AZN) ödəməlidir. Bir çox zabitlər yeni müqaviləni imzalamaqdan imtina ediblər.

Vəkil Norayr Norikyan deyib: "Çox təəssüf ki, zabitlərin böyük əksəriyyəti bu gün Ermənistanı tərk etmək niyyətindədir. Bu, bizim ümumi bəlamızdır və ordunun problemidir. Erməni ordusunun zabiti öz ailəsini saxlamaq iqtidarında deyil və ailəsini saxlamaq üçün xaricə getməyə çıxış yolları axtarır. Bu, yalnız Müdafiə Nazirliyinin problemi deyil, bu dövlətin strateji problemidir və dövlət bu sahədə əsaslı dəyişikliklər etməyə borcludur. Elə şərait yaradılmalıdır ki, erməni ordusunun zabiti özbaşına xidməti tərk etməsin. Müdafiə Nazirliyi çalışır ki, bu yolla ordudan axının qarşısını alsın, ancaq bu, mümkün deyil".

# Ermənistan silahlı qüvvələrinin zabiti intihar edib

*AZƏRTAC Ermənistan mətbuatına istinadla xəbər verir ki, 26 yaşlı Andranik Armenoviç Mkrtçyanın meyiti xidmət etdiyi hərbi hissənin ərazisində aşkarlanıb. Cəsədin çənə hissəsində odlu silahdan açılan atəş nəticəsində əmələ gələn yara müşahidə edilib.*

Əvvəlcə Andranik Armenoviç Mkrtçyanın nizamnamədənkənar münasibətlər nəticəsində öldürüldüyü bildirilsə də, sonradan onun istifadəsində olan avtomat silahı çənəsinə söykəyərək atəş açmaqla intihar etdiyi müəyyənləşib.

Ermənistan Müdafiə Nazirliyi A.Mkrtçyanın zabit olduğunu açıqlayıb. Hadisə ilə bağlı cinayət işi başlanıb, araşdırılma aparılır.

A.Mkrtçyan əvvəllər Yerevan yaxınlığındakı hərbi hissələrdən birində xidmət edib. Oğurluq etdiyinə görə onun xidmət yeri Meğri şəhərində yerləşən hərbi hissəyə dəyişdirilib.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Hərbi etikanın əsasları.**
**2. Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları.**

**Mövzu:** Hərbi etikanın əsasları. Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlər, bölmədə sağlam əhval-ruhiyyənin yaranmasında kollektivin rolu.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*Hərbi etikanın əsasları*

Hərbi xidmət insanlardan yüksək intizam, icraçılıq, dəqiqlik, təmkinlilik, dözümlülük və çeviklik tələb edən fəaliyyət sahəsidir. Hərbi qulluqçuların xidməti fəaliyyət və ondan kənar vəziyyət şəraitində davranış, müvafiq hərəkət və hadisələrə düzgün reaksiya vermə qabiliyyətini formalaşdıran əxlaqi normalar öz əksini hüquqi sənədlərdə, qanunlarda, nizamnamələrdə, təlimatlarda, komandirlərin əmrlərində tapıb. Buna görə əxlaqi tələblər qanun qüvvəsinə minir. Məsələn, qorxaqlıq cəmiyyətdə insanın psixoloji durumunun keyfiyyət göstəricisi kimi yalnız mənəvi baxımdan pislənirsə, hərbi kollektivdə aşkar edilən qorxaqlıq isə çətin məqamda döyüş tapşırığının uğurla yerinə yetirilməsinə mane olan zərərli və təhlükəli bir amil kimi aradan qaldırılmalıdır.

Odur ki, hərbi qulluqçuların qarşısında həmişə hərbi-etik normalardan irəli gələn yüksək tələblər qoyulur.

Bununla belə, əxlaq qanunlara, nizamnamələrə korkoranə tabe etdirilmir. Əksinə, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidməti tənzimləyən bütün hüquqi sənədlər, o cümlədən Daxili Xidmət, İntizam, Qarnizon və Qarovul Xidməti və Sıra nizamnamələri Vətən qarşısında borcun yerinə yetirilməsində könüllülüyün, şüurluluğun, təşəbbüskarlığın vacibliyini vurğulayır.

Hərbi xidmətə çağırılan hər kəs Vətənimiz Azərbaycana sadiq olacağına, hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirəcəyinə, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağına təntənəli surətdə and içir.

Hərbi borcunu daim nümunəvi yerinə yetirən hər bir bacarıqlı döyüşçü yüksək mənəviyyata malikdir. Hərbi borcu həm də ləyaqətlə yerinə yetirmək hərbçinin şərəf işidir. Öz vəzifəsinə layiqincə yanaşmaq hərbi qulluqçulardan bəzən böyük çətinlikləri dəf etməyi tələb edir. Hərbi kollektivin uğuru onun hər bir üzvünün fəaliyyətindən asılıdır. Əgər hamı öz vəzifəsinə hərbi andın, nizamnamələrin tələblərinə uyğun yanaşırsa, deməli, nailiyyət labüddür.

Hərbi etikanın vacib normalarından biri hərbi kollektivdə böyüyə hörmət etmək, subardinasiya prinsipinə riayət etməkdir. Vəzifəcə və rütbəcə kiçik olanlar rəisləri nizamnaməyə uyğun olaraq əsgəri qaydada birinci salamlayır və onlara rütbələri ilə müraciət edirlər.

Hərbi qulluqçular öz aralarında da nəzakətli olmalı, bir-birinə "siz" deyə müraciət etməlidirlər. Bu qayda rəislərə də, onların tabeliyindəki olanlara da eyni dərəcədə şamil edilir.

Azərbaycan zabiti və əsgəri adını daşıyan hər kəs öz yüksək mədəniyyəti, nəzakəti, təvazökarlığı ilə nümunə olmalıdır. İctimai yerlərdə, nəqliyyatda hərbi qulluqçu rütbəcə böyük olan zabiti, rəisi salamlamalı, ona hörmət etməlidir.

Hərbçilər mülki əhaliyə qarşı da nəzakətli davranmalı, Azərbaycan zabiti və ya əsgəri adını uca tutmalı, bu şərəfli ada ləkə gətirməməlidirlər. Bədbəxt hadisələr zamanı biganə qalmamalı, bacardıqları köməyi göstərməlidirlər. Hər bir döyüşçü səliqəli geyinməli, əlini cibində saxlamamalı, rəisinin və ya komandirinin yanında qeyri-etik hərəkətlərə yol verməməlidir.

Hərbi qulluqçunun mənəvi simasını göstərən cəhətlərdən biri də onun danışığıdır. Ünsiyyət zamanı aydın, səlis, inandırıcı sözlərə üstünlük vermək lazımdır.

*Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları*

Hərbi xidmətə çağırılan hər bir kəs ordu kollektivinin bir üzvünə çevrilir və silahdaşları ilə nizamnamələrin tənzimlədiyi ictimai və qarşılıqlı münasibətlərə girir.

Hərbi nizamnamələr Silahlı Qüvvələrin xüsusiyyətini və qarşısında duran vəzifələri nəzərə almaqla hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin prinsiplərini müəyyən edir.

Vahid rəhbərlik, təkbaşçılıq və hərbi-etik normalar kollektivdə sağlam və işgüzar iqlimin yaradılmasında aparıcı rol oynayan komandir və rəislərin tabeliyindəkilərə qarşı kifayət qədər tələbkar olmalarını, sonuncuların isə verilmiş əmr və tapşırıqları sözsüz və dəqiq yerinə yetirmələrini, yuxarıda qeyd edildiyi kimi, rütbəcə böyüklərə hörmət göstərmələrini, hərbi salam və nəzakət qaydalarına ciddi əməl etmələrini nəzərdə tutur.

Bir rəhbər və hərbçi-pedaqoq hərbi kim rəis yalnız sözlə, komanda və əmrlə deyil, işə və insana münasibəti ilə də tabeliyindəkilərə təsir göstərir. Tələbkarlıqla yanaşı, zabit həm də qayğıkeş və ədalətli olmalı, hərbi qulluqçular arasında qarşılıqlı inam və səmimiliyin, döyüş yoldaşlığının bərqərar olunmasına çalışmalıdır. Qayğı və inamın mənəvi-psixoloji amil kimi mühüm əhəmiyyəti ondadır ki, döyüşçülərdə nəinki öz komandirlərinə etimad və hörmət hissi aşılayır, eyni zamanda öz hərbi borcunu ləyaqətlə yerinə yetirməyə həvəs yaradır.

Hərbi qulluqçular arasında kollektivçilik prinsipi nizamnamələrdə geniş yer tutur. Əsgər, çavuş, gizir və zabitlər arasında kollektivçilik, döyüş yoldaşlığı həm əxlaqi, həm də hüquqi norma kimi təzahür edir. Nizamnamələr hərbçilərdə döyüş yoldaşlığını uca tutmağı, sözdə və əməldə silahdaşlarına kömək etməyi, onları nalayiq hərəkətlərdən çəkindirməyi tərbiyə edir.

Əsgər və matroslar arasında münasibətlər döyüşçülərin hərəkət və davranışına, onlarda bir çox şəxsi mənəvi keyfiyyət və vərdişlərin formalaşmasına bilavasitə və ciddi təsir göstərir. Ona görə tabeliyindəkilərə müvəffəqiyyətlə rəhbərlik etmək, hərbi kollektivi möhkəmləndirmək üçün həmin münasibətləri hər bir zabit və çavuş yaxşı bilməlidir.

Hər bir hərbi kollektivdə təlim və döyüş tapşırığını birgə yerinə yetirərkən, ictimai işlərdə, məişətdə əsgər və matroslar arasında, adətən, qarşılıqlı rəğbət və bağlılıq, dostluq və qardaşlıq hissləri yaranır, döyüşçülər vaxt və qüvvə əsirgəmədən hərbi texnikanın sirlərini öyrənməkdə, çətin məqamlarda bir-birinə kömək edir, bir-birinin uğuruna sevinirlər.

Bununla belə, sıravi döyüşçülərin arasında nizamnamə tələblərinin pozulması halları da müşahidə edilir. Bu, adətən nizam-intizamın vəziyyəti ilə, zabit və çavuşların öz vəzifələrinə kifayət qədər ciddi yanaşmamaları ilə, əsgər və matroslar arasında xidmət müddətinin fərqi ilə, onların orduyaqədərki həyat tərzi və vərdişləri ilə izah olunur. Əsgər və matroslar arasında göstərilən mənfi hallar komandir və rəislərdən tərbiyə işinin gücləndirilməsini, neqativ halları doğuran səbəblərin vaxtında aradan qaldırılmasını tələb edir.

Hərbi kollektivlərdə bəzən bir neçə hərbi qulluqçunun birləşdiyi kiçik qrupların yaranması hallarına da təsadüf edilir, bu qruplar ümumi maraq, fəaliyyət, hərbi xidmətə münasibət zəminində ortaya çıxır. Hətta ən mehriban kollektivlərdə belə iki və bir neçə nəfərdən ibarət belə qruplar yaranır. Çox vaxt bu qruplar öz silahdaşlarına müsbət təsir göstərir, hərbi kollektivi möhkəmləndirən amil rolunu oynayır. Ancaq bəzən özünü kollektivə qarşı qoyan qruplar da əmələ gələ bilər. Belə qruplara qarşı mövqeni düzgün müəyyənləşdirməklə, həm obyektiv amilləri, həm də daxili-psixoloji motivləri üzə çıxarmaq olar.

Ona görə komandirlər və tərbiyə işi orqanı zabitləri üçün kollektivlərdə mövcud olan qarşılıqlı münasibətlərin konkret təzahürlərini bilmək, onları təhlil etmək, mənfi halların yaranması və inkişafının səbəblərini vaxtında aşkara çıxarmaq, nizamnamələrin tələblərinə uyğun qarşılıqlı münasibətlərin düzgün vasitə və yollarını seçmək vacibdir.

Hərbi-etik davranış xüsusiyyətləri hərbi xidmət nizamnamələrində öz əksini geniş şəkildə tapmışdır və həmin normalar zabitlərimiz üçün qarşılıqlı münasibətlərin tənzimlənməsinə, ordu kollektivində möhkəm hərbi intizamın təşəkkül tapmasına xidmət edən yararlı istifadə mənbəyidir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**21 avqust 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 119 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Voskepar kəndlərində, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Aşağı Əskipara, Məzəm kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Koxanəbi, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Kəngərli, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan və Kürdlər kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

**22 avqust 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 134 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Asudə vaxt

# Əsgərlər tariximizi öyrənirlər



*Son vaxtlar hərbi hissələrdə şəxsi heyətin asudə vaxtının maraqlı və səmərəli təşkili məqsədi ilə yerli icra hakimiyyəti orqanları ilə birgə qarşılıqlı fəaliyyət planına əsasən, mütəmadi olaraq respublikamızın görməli yerlərinə, muzeylərə, tarixi abidələrə səyahətlər, gəzintilər və ekskursiyalar təşkil olunur.*

Belə gəzintilərin təşkili çavuş və əsgərlərin dünyagörüşünün formalaşmasına, Azərbaycanımızın tarixi, coğrafiyası, mədəniyyəti və adət-ənənələri haqqında bilgilərin dərinləşməsinə, vətənpərvərlik ruhunun möhkəmlənməsinə kömək edir.

Asudə vaxtın səmərəli təşkilini təmin etmək məqsədilə ön xətdə yerləşən "N" hərbi hissəsinin nümunəvi əsgərlərinin Füzuli rayonunun Horadiz şəhərinə gəzintisi təşkil edilib. Şəxsi heyətlə iş üzrə məsul olan zabitlər Namiq Cavadov və Seymur Həbibullahovun iştirakı ilə həyata keçirilən gəzinti aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət etməklə başlayıb. İşğal altında olan torpaqlarımızın bir qisminin ordumuzun, xüsusi ilə aprel şəhidlərinin şücaəti sayəsində düşməndən azad olunduğu şəxsi heyətə çatdırılıb. Həmçinin əsgərlərimizin tarix yazdıqları, Vətən uğrunda canı, torpağa töküılən qanı ilə əbədi olaraq xalqımızın yaddaşında qalacaqları vurğulanıb.

Şəxsi heyət abidəni ziyarət etdikdən sonra Azərbaycanın tarixi və milli adət-ənənələrinə dərindən bələd olmaq məqsədilə Tarix Diyarşünaslıq Muzeyi ilə yaxından tanış olublar. Əsgərlərə muzey və muzeydəki eksponatlar barədə geniş məlumat verilib.

Sonra bir qrup hərbi qulluqçu Heydər Əliyev Mərkəzini də ziyarət edib. Mərkəzdə Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada əsgərlər dünyanın nüfuzlu siyasi xadimlərindən olan Heydər Əliyevin gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsini, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınmasını, iqtisadiyyatımızın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoymasını, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolara və sənədlərə maraqla tamaşa edib. Mərkəzdə əbədiyaşar liderin həyat və fəaliyyətinə dair tarixi sənədlər də nümayiş etdirilir.

Tədbir Füzuli rayonu İcra Hakimiyyətinin təşkilatçılığı ilə hazırlanan konsert proqramı ilə davam etdirilib. Həmçinin Gənclər mərkəzində əsgərlərin istirahəti üçün şərait yaradılıb.

Sonda xatirə şəkili çəkdirilib.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**



# Rusiya portalı Qaregin Njdeyə İrəvanda heykəl qoyulmasını kəskin tənqid edən məqalə yayıb

*Rusiyanın KM.RU portalında Daşnaksütyun partiyasının ən iyrənc xadimlərindən biri olan Qaregin Njdeyə İrəvanda heykəl qoyulmasının kəskin tənqid edildiyi məqalə verilib.*




AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi Daniil Preobrajinski Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyünü xatırladaraq bu cür addımların anlaşılmaz və təzadlı olduğunu qeyd edib.

O yazır ki, iyulun 17-də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələrin xarici işlər nazirləri İkinci Dünya müharibəsi illərində şəhidlərin xatirəsinə hörmətsizliyin yolverilməzliyi haqqında bəyanatla çıxış ediblər. Bəyanatda vurğulanır ki, tarixin yenidən yazılması, İkinci Dünya müharibəsinin nəticələrinə yenidən baxılması və təhrif edilməsi, nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi cəhdləri istiqamətində atılan məqsədyönlü addımlar qətiyyən yolverilməzdir və qınanılır.

Məqalədə vurğulanır ki, qəbul edilən bəyanata baxmayaraq, hələ 2016-cı ildə İrəvanda Daşnaksütyun Partiyasının ən iyrənc xadimlərindən biri olan Qaregin Njdeyə abidə qoyulub. Bu azmış kimi, Ermənistan prezidenti Serj Sarkisyanın iştirakı ilə abidənin təntənəli açılış mərasimi də keçirilib.

"Sarkisyanın "məclisin səbəbkarı"nın tərcümeyi-halı ilə tanış olmamasını təsəvvür etmək çətindir", - yazan müəllif diqqətə çatdırır ki, hələ XX əsrin əvvəlində Njde Daşnaksütyun işi üzrə cinayətə cəlb olunub və bir neçə il həbsxanada saxlanılıb. Tarixi bilməyənlər üçün xüsusi qeyd edilir ki, Daşnaksütyun inqilabdan əvvəl terrorçu əməliyyatla məşğul olub. İkinci Dünya müharibəsi zamanı Njde nasistlərlə fəal əməkdaşlıq edib, Reyx naziri Rozenbergə müraciət edərək Ermənistanı Almaniyanın müstəmləkəsinə çevirməyi xahiş edib. Almaniyanın məğlubiyyətindən sonra Njde həbs olunub və ona 25 il azadlıqdan məhrum olunma cəzası verilib. 1955-ci ildə o, Vladimir həbsxanasında ölüb. İllər keçdi, SSRİ dağıldı və hazırkı vaxtda Ermənistan rəhbərliyi bu şəxsə paytaxtda abidə ucaltmağa qərar verdi. Njdenin nə Hitler hakimiyyətinin nümayəndələri ilə əməkdaşlığı, nə də ki Ermənistanın Reyxin müstəmləkəsinə çevrilməsi xahişi onun İrəvanda abidəsinin ucaldılmasına mane ola bilmədi. Bu, yeganə misal deyil. 2005-ci ildə Ermənistanın cənubunda Njdenin xatirəsinə memorial kompleks və park salınıb. Ziddiyyət göz qarşısındadır. Bir tərəfdən Ermənistan nasistlərin vasitəçisinə abidə ucaldır, digər tərəfdən isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü kimi diplomatik səviyyədə belə hərəkətləri qınayır.

Müəllif qeyd edir ki, Ermənistan nasizmin, neonasizmin qəhrəmanlaşdırılması, irqçiliyin, ksenofobiyanın və onunla bağlı olan dözümsüzlüyün müasir formalarının eskalasiyasına təkan verən təcrübələrlə mübarizəyə dair BMT Baş Məclisinin qətnamələrinin həmmüəllifləırindən biridir.

İrəvanda Njdeyə abidənin ucaldılmasını nə ilə izah etmək olar? Bu həmin qətnamənin pozulması deyilmi? Yaxud Ermənistan ikili siyasəti ilə nə demək istəyir? Suallar təbii ki, açıq qalır.

# Xəbərlər: hadisələr, faktlar

## Polis Barselonada mikroavtobusu kütlənin üzərinə sürən terrorçunun məhv edildiyini təsdiqləyib



Kataloniya polisi bir neçə gün əvvəl Barselonada terror aktı törədən şəxsin məhv edildiyini bildirib.

Polis terror aktını törədən şəxsin Yunus Əbu Yaqub olduğunu təsdiqləyib.

Xatırladaq ki, terrorçunun idarə etdiyi mikroavtobusu kütlənin üzərinə sürməsi nəticəsində 14 nəfər həlak olub, 100-dən artıq insan yaralanıb.

## İraq ordusu Telafer şəhərinin üç kəndini İŞİD-dən azad edib



İraq ordusu Telafer şəhərini İŞİD-dən azad etmək üçün əməliyyat keçirib. Nəticədə şəhərin üç kəndi terrorçulardan azad olunub.

Əməliyyat zamanı İŞİD-in 22 üzvü məhv edilib.

Əməliyyatda İraq ordusu və federal polis qüvvələri iştirak edib.

Xatırladaq ki, Mosul şəhərinin mərkəzindən 63 kilometr qərbdə yerləşən, türkmənlərin yaşadığı Telafer şəhəri 2014-cü ilin iyununda İŞİD terrorçuları tərəfindən ələ keçirilib.

## Suriyada İŞİD-in 200 üzvü məhv edilib



Suriyada Rusiya tərəfindən İŞİD-ə qarşı həyata keçirilən əməliyyat nəticəsində terror təşkilatının 200 üzvü məhv edilib.

Hava hücumu əməliyyatı zamanı 20 hərbi maşın, tanklar daxil olmaqla bir neçə zirehli texnika və çoxlu silah-sursat ələ keçirilib.

## Yaponiyada ilk dəfə okean axınlarından elektrik enerjisi alınıb



Yaponiyanın "IHI Corporation" şirkəti və Yeni Energetikanın və Sənaye Texnologiyalarının İnkişafı Təşkilatı (NEDO) birlikdə dünyada ilk dəfə okean axınlarından istifadə etməklə elektrik enerjisinin istehsalına imkan yaradan avadanlığı sınaqdan keçiriblər.

Kuçinoşima adasının yaxınlığında keçirilən sınaq zamanı Kuroşio axını rayonunda 20-50 metr dərinlikdə metal silindrlərdən ibarət avadanlıq yerləşdirilib.

Təqribən 20 metr uzunluğunda silindrlərdən ikisinin kənarında hər biri 11 metr diametrə malik kürəklərlə təchiz edilmiş iki generator quraşdırılıb.

Sınaq zamanı mütəxəssislər 30 kilovat gücündə elektrik enerjisi əldə ediblər. Yeni qurğudan 2020-ci ildən başlayaraq istifadə olunacağı gözlənilir.

## ABŞ-ın hərbi gəmisi neft tankeri ilə toqquşub



ABŞ Donanmasına məxsus "USS John S McCain" adlı hərbi gəmisi Sinqapura doğru hərəkət edərkən Liberiya bayrağı ilə üzən "Alnic MC" neft tankeri ilə toqquşub. Hadisə nəticəsində 10 əsgərin itkin düşdüyü, 5-nin yaralandığı bildirilir.

İtkin düşənlərin axtarışı davam etdirilir. Xilasetmə işlərinə Sinqapur Donanması da qoşulub. Gəmidə 140-dək heyətin olduğu qeyd edilir.

Qəzanın dünyada dəniz nəqliyyatının ən sıx olduğu ərazilərdən biri olan Malakka Boğazında baş verdiyi bildirilib.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU



*Əsgər məktubu*

# “And içirik ki...”

Salam! Salam ana vətənini qoruyan, onun keşiyində dayanan əsgər yoldaşlarım mənim! Salam! Salam olsun sənə şəhidim mənim! Salam olsun sənə Mübarizim, Fəridim, Çingizim mənim! Salam olsun sənə şəhid anası! Salam olsun sənə Xankəndim, Xocalım, Şuşam, Laçınım mənim! Salam olsun sizə bu Vətən, bu millət, bu xalq, bu torpaq uğrunda şəhid olan Qəhrəmanlarım! Salam olsun sənə zirvələrdən ən uca zirvə olan Şəhidlik zirvəsinə ucalan şəxsin övladı! Salam olsun sənə yüksəklərdə dalğalanan, Müqəddəs üç rəngli bayrağım! Salam olsun sənə Azərbaycan əsgəri!

Biz bu günləri sizinlə fəxr edirik! Fəxr edirik ki, məhz sizin şücaətiniz nəticəsində indi müqəddəs üç rəngli bayrağımız Lələtəpədə, Bayraqtəpədə dalğalanır! Biz əminik ki, qısa bir müddətdə Cəbrayılımızı, Qubadlımızı, Zəngilanımızı, Kəlbəcərimizi,... də azad edəcəyik! Məmləkət sizinlə, bizimlə fəxr edir! Cocuq Mərcanlıda yeni Cocuq Mərcanlının inşası sizlərin sayəsindədir! Fəxr edirik ki, Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusu, Azərbaycan əsgəri Cənubi Qafqazın ən güclü əsgəridir! Söz veririk, söz veririk ki, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu Silahlı Qüvvələrin sıralarında xidmət edərkən Azərbaycan dövlətçiliyinə, Azərbaycan xalqına, millətçiliyinə, torpağa, Vətənə hər zaman sadiq olacaq, Azərbaycanın ərazi bütövlüyü uğrunda son damla qanımıza qədər vuruşacağıq!

Hər birimiz Silahlı Qüvvələrin sıralarına daxil olarkən qarşımıza məqsəd qoymuşuq ki, müqəddəs üçrəngli bayrağımızı Laçında, Xankəndində, Xocalıda, Şuşa qalasında ,... da dalğalandıracağıq! Sizlərə söz veririk, Azərbaycan əsgərinin sözünü veririk! Söz veririk ki, bu torpaq, bu millət, bu xalq, bu bayraq uğrunda canımızdan, qanımızdan belə keçməyi əsirgəməyəcəyik, nə olur olsun Azərbaycan əsgəri öz ata-baba torpaqlarını düşmən işğalından azad edəcək!

Allah səni qorusun Azərbaycan! Allah sizi qorusun yenilməz, güclü Azərbaycan ordusu! Allah səni qorusun müqəddəs üçrəngli Azərbaycan bayrağı!!!

**Əsgər
Murad ABDULLAYEV,
"N" hərbi hissəsi**

*Hərbi ənənələr, yeniliklər*

# Yaylım atəşli “Smerç” reaktiv sistemi

Dünya ordusunda ən güclü yaylım atəşli sistemlərdən biri keçmiş Sovetlər birliyində hazırlanmış "Smerç" reaktiv sistemidir. "Smerç" 300 mm kalibrli mərmiləri 90 kilometrlik məsafəyə qədər atmağa qadirdir. Bu sistem yaylım atəşli sistemlərin üçüncü nəslindəndir. Silahlanmaya 1987-ci ildə qəbul edilib. Hazırda rus ordusunun və bir çox ölkələrin silahlanmasında var.



Yaylım atəşli "Smerç" reaktiv sistemi quru qoşunları, nüvə silahı nəzərə alınmadan, ən güclü dağıdıcı silahlardan biri sayılır və onun əsasını reaktiv mərmilər tutur. Hər raketin idarəetmə sistemi vardır. İstismarı zamanı bir neçə dəfə modernləşdirilib. "Smerç" döyüş maşını dünyada yaylım atəşli yüksək uzaqvurma qabiliyyətinə malik olan sistem kimi indi də qalmaqdadır. 1989-cu ildə "Smerç"in müasir 9A52-2 döyüş və nəqliyyat-təchizat maşınının modeli hazırlanıb.

1993-cü ildən başlayaraq yaylım atəşli "Smerç" reaktiv sistemi dünya silah bazarında mühüm yer tutur.

Reaktiv sistemin elementlərinə döyüş maşını, 300 mm-li reaktiv mərmilər, nəqliyyat-təchizat maşını metereoloji kompleks, topoqrafik çəkiliş etmək üçün avtomobil, xüsusi avadanlıqlar dəsti daxildir. Döyüş maşını yüksək keçidliyə malik avtomobildən ibarətdir. Onun təchizat maşını kranlı cihazlanma ilə təchiz edilib və 12 ədəd reaktiv mərmini daşıya bilər. Artileriya hissəsi 12 ədəd boruşəkilli istiqamətləndirici, fırlanan əsasdan, qaldırıcı və dönən mexanizmlərdən təşkil edilib. Həmçinin, nişangah və elektrik cihazlanmasından ibarətdir. Hər bir mexanizm oyuqla təchiz edilib ki, bu da reaktiv mərminin dövrü hərəkər etməsinə imkan verir. Döyüş maşını hidravlik dayaqlarla da təchiz olunub. Onun buraxıcı qurğusunda on iki silindrli dizel mühərriki quraşdırılıb. Təkər formulu 8x8-dir. Şose yolda saatda 60 kilometr sürətlə hərəkət edə bilir, bütün maneəli yollardan keçməyə qadirdir.

"Smerç"in raketləri klassik aerodinamik sxemdə hazırlanıb. Onun belə quruluşu radarların ekranında görünüşünü azaldır. Hər bir reaktiv mərmi inersiyalı idarəetmə sistemi ilə təchiz olunub. Raketin işini yaxşılaşdırmaq üçün qaz generatorları da quraşdırılıb. Atəş raketdən tək-tək və ya yaylımla açıla bilər. Raketin hər birinin uzunluğu 7,5 metr, çəkisi 800 kiloqramdır ki, 280 kiloqramı əsas hissəsidir. Əsas hissədə 72 döyüş elementi vardır.

"Smerç" reaktiv sistemi 38 saniyə ərzində bir yaylım atəşi açır. Distansion pultun köməyi ilə heyətin kabinəsindən buraxılır. Kompleks təqribən 20 dəqiqə ərzində təchiz oluna bilər. "Smerç" yaylım atəşli reaktiv sisteminin texniki xüsusiyyətləri: uzunluğu 12370 mm, eni 3050 mm, çəkisi 43,7 ton.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Ermənistanda hərbi hissələrdə qulluq edən zabitlərin əksəriyyəti ölkəni tərk etmək niyyətindədir

Ermənistanda hərbi hissələrdə qulluq edən zabitlərin əksəriyyəti ölkəni tərk etmək niyyətindədir. İşğalçı ölkədə fəaliyyət göstərən hüquq müdafiəçiləri belə bəyanatla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, hərbçiləri bu addımı atmağa hərbi hissələrdəki ağır vəziyyətlə yanaşı, işğalçı ölkənin müdafiə nazirinin iyunun 20-də verdiyi yeni əmr vadar edib. Ermənistan müdafiə nazirinin yeni əmrinə əsasən, hərbi təhsil müəssisəsini bitirmiş zabit 10 il başa çatmamış xidmətdən imtina edə bilməz. Bu, baş verərsə hərbçi hər il üçün hazırda mövcud 250 min dram əvəzinə dövlətə 1 milyon dram ödəməlidir. Yeni qərar işğalçı ölkədə hərbçilər tərəfindən etirazla qarşılanıb. Zabitlərin hüquqlarını müdafiə edən vəkil Norayr Norikyan bildirib ki, əmrdən sonra 17 zabit hüquqlarının bərpa olunması tələbi ilə məhkəməyə müraciət edib.

"Bu, bizim ümumi bəlamızdır və ordunun problemidir. Ermənistanda hərbçi öz ailəsini saxlamaq iqtidarında deyil və bu səbəbdən xaricə getmək üçün çıxış yolları axtarır. Bu, yalnız Müdafiə Nazirliyinin deyil, dövlətin strateji problemidir. Hökumət bu sahədə əsaslı dəyişikliklər etməyə borcludur. Elə şərait yaradılmalıdır ki, erməni zabitlər özbaşına xidməti tərk etməsinlər. Müdafiə Nazirliyi bu yolla orduda axının qarşısını almağa çalışsa da bu, mümkün deyil", - deyə vəkil vurğulayıb. Onun sözlərinə görə, hərbidə sosial şərait olduqca bərbaddır. Hərbçilərə keyfiyyətsiz qida verirlər. Zabit ailələri dözülməz şəraitdə yaşayırlar. Hərbi hissələrdə isə intizamsızlıq hökm sürür.

# İdman

## Azərbaycanlı peşəkar boksçu Moskvada çıxış edəcək




Payızın əvvəlində Moskvada MMA üzrə peşəkarlar arasında turnir keçiriləcək. Turnirdə 20 yaşlı Tahir Abdullayev də çıxış edəcək.

Sentyabrın 9-na təyin edilmiş görüşdə Tahir Abdullayevin rəqibi 26 yaşlı Rusiya nümayəndəsi Aleksey Balıberdin olacaq. MMA üzrə üçüncü beynəlxalq "ORION FIGHTING GLOBAL" turnirində Tahir Abdullayev 77 kq çəki dərəcəsində çıxış edəcək.

"Tank" ləqəbli Azərbaycan döyüşçüsünün aktivində 4 qələbə var. Tahir peşəkar rinqdə ilk döyüşünü 2015-ci il aprelin 6-da keçirib.

## Azərbaycanın cüdo üzrə milli komandası universiadada aktivinə daha bir medal yazdırıb



Taypeydə keçirilən XXIX Ümumdünya Yay Universiadasının cüdo yarışlarının ikinci günündə milli komandamız aktivinə daha bir medal yazdırıb.

Ölkəmizi 90 kiloqram çəki dərəcəsində təmsil edən Firudin Dadaşov yarışda universiadanın bürünc medalına layiq görülüb.

Yarışlara 116 final mərhələsindən başlayan cüdoçumuz müvafiq olaraq Kolumbiya və İtaliya idmançılarını mübarizədən kənarlaşdırsa da, dörddəbir finalda Yaponiya təmsilçisi ilə görüşdə məğlub olub. Bürünc medal uğrunda görüşdə idmançımız Çexiya, Latviya və Qazaxıstan cüdoçularına qalib gələrək yarışda üçüncü yeri tutub.

Turnirin ilk günündə Azərbaycan idmançısı Zelim Kotsoyev (100 kq) universiadanın qızıl medalını qazanıb.

## Qadınlar arasında şahmat üzrə Rusiya Kubokunun üçüncü mərhələsində Elmira Mirzəyeva qalib gəlib



Naberejnıye Çelnı şəhərində qadınlar arasında şahmat üzrə "Promvest-2017" Ticarət Evi tərəfindən təsis edilmiş Rusiya Kubokunun üçüncü mərhələsi başa çatıb. Bu mərhələdə Moskvada yaşayan azərbaycanlı şahmatçı Elmira Mirzəyeva qalib gəlib.

Moskva çempionu Elmira Mirzəyeva 9 turdan ibarət yarışı məğlubiyyətsiz başa vuraraq 7 xal toplayıb. Mükafat fondu 300.000 rubl olan bu turnirin 15 iştirakçısı təltif olunub.

Şahmat üzrə beynəlxalq dərəcəli qrossmeyster, Moskvada yaşayan Elmira Mirzəyeva Rusiya və dünya idmanında sanballı uğurlar qazanmış gənc azərbaycanlı idmançılardan biridir.

## “Qəbələ” klubu “Dinamo” komandasını məğlub edib

"Qəbələ" və "Dinamo" (Tbilisi) klublarının aşağı yaş qruplarından olan komandalar arasında ilk matçlar keçirilib.

"Qırmızı-qaralar"ın U-13 və U-15 komandaları Qəbələdə səfərdə olan qonşu ölkədən gələn həmyaşıdları ilə görüşüb. On üç yaşadək futbolçuların oyununda məhsuldar nəticə qeydə alınıb. 3:2 hesabı ilə qalib gələn "Qəbələ"nin heyətində Elmir Hüseynli, Murad Ələkbərov və Eşqin Əhmədov fərqləniblər. U-15 komandalarının matçında isə bir qol vurulub. Bu qarşılaşmada qonaqlar üstün olublar.

**AZƏRTAC-ın
materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 351
Nüsxə 4600